Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi
İQTİSADİ İSLAHATLAR
ELMİ TƏDQİQAT İNSTİTUTU

# ETİKA KODEKSİ

*© 2016, AR İN İqtisadi İslahatlar ETİ*

**Bakı şəhəri**

**ƏZİZ HƏMKARLAR!**

***AR İN İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu*** Azərbaycanda iqtisadi siyasətin *"Beyin Mərkəzi"* olaraq 50-illik tarixi inkişaf yolu keçmişdir. Respublikada iqtisadi islahatların və dövlət konsepsiyasının düzgün formalaşdırılması işində İnstitutun əməkdaşlarının gərgin əməyi və rolu danılmazdır. Təsadüfi deyildir ki, vaxtı ilə İnstitutuda fəaliyyət göstərmiş mütəxəssislərin əksəriyyəti bu gün ölkənin ali və iqtisadi idarəetmə strukturlarında-*Prezident Aparatı, Nazirlər Kabineti, Milli Məclis, Milli Bank və digər dövlət orqanlarında* məsul vəzifələrdə çalışırlar. Eyni zamanda İnstitutun ekspertləri mütəmadi olaraq müxtəlif rəsmi görüşlərdə ölkəmizin iqtisadi inkişafı naminə dəyərli tövsiyyələrini və təkliflərini verir, Azərbaycan mövqeyini xarici ölkələrdə layiqincə müdafiə edirlər. Belə bir münasibət, ilk növbədə hər bir İnstitutun əməkdaşının Azərbaycana olan dərin sevgisindən və ölkəmizin gələcəyinə olan inamindan doğur.

Peşəkarlığımız və keyfiyyətlə həyata keçirdiyimiz layihələr nəticəsində artiq biz təşkilatımızın müvafiq dövlət strukturları, yerli və beynəlxalq təşkilatlar qarşısında inamını və müsbət imicini qazanmışıq. Lakin bu nailiyyətlər heç də asan qazanilmamışdır. 2003-cü ildə müvcud tələbatlara uyğun olaraq İnstitutun təşilatı strukturunda əsaslı dəyişikliklər edilmişdir. Artıq İnstitutun inzibati komanda sisteminə uyğun idarəetmə funksiyalarını yerinə yetirən strukturdan çevik və dinamik struktura malik müasir bir elmi-tədqiqat mərkəzinə çevrilmişdir. Bu gün İnstitutun fəaliyyəti korporativ əhval-ruhiyyəli cavan və ozünə inamlı menecerlər tərəfindən idarə olunur. Bu gün bütün İnstitutun əməkdaşları mərkəzin keyfiyyət, peşəkarlıq, halallıq, novatorluq və komanda ruhu kimi dəyərlərini bölüşür və bu dəyərlərə sadiqdir.

Azərbaycanın parlaq gələcəyinə inam, cavan və güclü elmi potensiala malik peşəkar işçi heyəti, o cümlədən kollektivdəki sağlam iş mühiti, əməkdaşlarımızın daima özünü təkmilləşdirmək həvəsi, öz işinə məsuliyyət və yeni düşüncə tərzi bizi digər təşkilatlardan üstün və güclü edir. Lakin biz artiq əldə etdiyimiz nailiyyətlərlə kifayətlənməmli, Azərbaycanda həyata keçirilən iqtisadi inkişaf strategiyasının elmi əsaslarının hazılanması və sosial-iqtisadi tədqiqatlar sahəsində ən peşəkar təşkilata çevrilməliyik.

Buna nail olmaq yollarından biri, yüsək korporativ mədəniyyətə, ədalət, düzgünlük, halallıq və peşəkarlıq prinsipinə söykənən sağlam və güclü kollektivə sahib olmaqdır. Nəzərinizə çatdırılmış bu kitabça **"Etika Kodeksi"** adlanır. Burada təsbit olunmuş prinsiplər hər birimizin mühüm hesab etdiyimiz və bölüşdüyümüz mənəvi və əxlaqi dəyərlərdir. Etika Kodeksi, həmçinin özündə yüksək etik standartları əks etdiri və mühüm qərarların verilməsində bələdçi rolunda çıxış edir.

Burada, xüsusən İnstitutun rəhbərliyinin tərəfdaşlara, müştərilərə və rəqiblərə münasibətdə mövqeyi bəyan olunur, əməkdaşlara münasibətədə nəyin səhv, nəyin düzgün olması aydın şəkildə izah edilir.

Ümid edirəm ki, əməkdaşlarımız vəzifəsindən və mövqeyindən asılı olmayaraq etika kodeksində verilmiş davranış qaydalarına əməl edəcək və iş prosesində öz həmkarlarına, təşkilatın tərəfdaşları və müştərilərinə münasibətdə ədalətli və qərəzsiz mövqe tutaraq, təşkilatın maraqlarını hər şeydən üstün tutacaqlar.

## BİZİM MİSSİYA

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun (İİETİ) *missiyası* dövlət müstəqilliyi və bazar münasibətlərinə keçid şəraitində ölkənin iqtisadi inkişaf siyasətinin elmi əsaslarının hazırlanmasından, sosial-iqtisadi inkişafın proqnozlaşdırılmasından, mütərəqqi dünya təcrübəsi nəzərə alınmaqla iqtisadi islahatların starteji istiqamətlərinin və həyata keçirilməsinin taktiki yollarının müəyyənləşdirilməsindən, beynəlxalq iqtisadi və maliyyə təşkilatları ilə əməkdaşlığın genişləndirilməsinin və ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasının elmi əsaslarının işlənilməsidən ibarətdir.

## KODEKSİN MÜDDƏALARI

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu (İİETİ) olaraq bizim ən ümdə qazancımız sağlam kollektivimiz və ətrafımızda bir amal uğrunda birləşdiyimiz insanlardır.

Vətənpərvərlik, keyfiyyət, peşəkarlıq, halallıq, novatorluq və komanda ruhu İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun əsas dəyərlərini təşkil edir. Bu dəyərlər bizə fəaliyyətimizi yüksək keyfiyyətlə yerinə yetirməyə və müsbət reputasiya qazanmağa kömək edir. Hər bir əməkdaş öz davaranışı və işə düzgün münasibəti ilə bu dəyərin qorunmasına öz töhvəsini verir. Bu baxımdan təşkilat öz tərəfdaşları ilə münasibətləri aşağıdakı prinsiplər və öhdəliklər əsasında qurur:

## 1.ƏMƏKDAŞLARA MÜNASİBƏT

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun (İİETİ) öz nailiyyətlərini əməkdaşlarının gərgin zəhməti nəticəsində əldə edildiyini qəbul edir və bunu yüsək qiymətləndirir. Eyni zamanda əməkdaşlara münasibətdə aşağıdaki prinsipləri üstün tutur:

### 1.1. Müxtəlifilik.

Biz hər bir əməkdaşımızın dini mənsubiyyətinə, etnik-mədəni mənşəyinə hörmətlə yanaşır və bu zəmindən ayrıseçkilik hallarının yolverilməz olduğunu qəbul edirik.

### 1.2. Əməkdaşlara ədalətli münasibət.

Biz hər bir əməkdaşın şəxsiyyətinə hörmət bəsləyir, tutduğu vəzifəsindən, mövqeyindən vəya qohumluq əlaqəsindən asılı olamayaraq, onu yalnız peşəkarlığına işə və əmaəkdaşlara olan düzgün münasibətinə əsasən qiymətləndiririk.

### 1.3. Təhlükəsiz iş şəraiti və əmaəkdaşların sağlamlığının mühafizəsi.

Biz əməkdaşlarımız üçün təhükəsiz, təmiz və rahat iş şəraiti yaradır və onların sağlam olmasını hər şeydən üstün tuturuq.

### 1.4. Professional bilik və bacarıqlar.

Biz hər bir əməkdaşımızın daima fərdi proffesional bilik və bacarıqlarının artırılması, təkmilləşdirilməsi üçün böyük səylər göstərir və bu istiqamətdə treninqləri, təkmilləşdirmə kurslarının təşkilini və digər təhsil proqramlarını dəstəkləyirik.

### 1.5. İş şəraitində qeyri etik davranışlar.

Biz iş şəraitində qeyri etik davranışların istənilən formasını, o cümlədən təzyiq, təhqir, şit zarafatların yolverilməz olduğunu bəyan edirik.

## 2. ƏMƏKDAŞLARIN ÖHDƏLİKLƏRİ

Biz ümid edirik ki, əməkdaşlarımız etik kodeksdə əks olunmuş qaydalara və qərarlara hörmətlə yanaşsaq, eyni zamanda aşağıdaki prinsipləri öz fəaliyyətlərində rəhbər tutacaqlar:

**2.1** Təşkilatın maraqlarından çıxış edərək, təşkilatın siyasətini və prinsiplərini üstün tutmaq;

**2.2** Tərəfdaşlarla münasibətdə və kollektivdə düzgünlük, cavabdehlik, halalliq, hörmət, səmimilik, ədalət prinsiplərini üstün tutmaq.

**2.3** Rəhbərlik tərəfindən verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmək.

**2.4** Təşkilatın daxili nizam-intizam qaydalarına riayət etmək.

**2.5** Təşkilatın reputasiyasına xələl gətirən əməllərdən çəkinmək (həmçinin bax: maraqların münaqişəsi ilə bağlı müddəalara)

## 3. TƏRƏFDAŞLARA MÜNASİBƏT

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu (İİETİ) tərəfdaşlar qarşısında aşağldakı öhdəlikləri görür.

**3.1.** Tərəfdaşlara ədlətli, qərəzsiz və bərabər münasibət bəsləmək.

**3.2.** Tərəfdaşların qarşısında öhdəlikləri vaxtında və məsuliyyətlə yerinə yetirmək.

**3.3.** Tərəfdaşlara münasibətdə özünə hörmət və qarşılıqlı tələbkarlığı təmin etmək.

**3.4.** Tərəfdaşların gəlir əldə etmək hüququna hörmətlə yanaşmaq.

**3.5.** Uzun müddətli tərəfdaşlıq əlaqələrinin qurulmasına səy göstərmək.

**3.6.** Tərəfdaşlar tərəfindən verilən müxtəlif növ məlumatlara (statistik rəqəmlər, hesabatlar və s.) təqidi və obyektiv yanaşmaq.

## 4. MÜŞTƏRİLƏRƏ MÜNASİBƏT

Bizim uğurumuz daima dəyişən və təkmilləşən dəyərli müştərilərimizin ehtiyaclarını davamlı olaraq ödəməyimizdən asılıdır. Buna nail olmaq üçün biz müştərilərimiz qarşısında aşağıdaki öhdəlikləri götürürük:

**4.1** Müştərilərə daima peşəkar səviyyədə və keyfiyyətlə xidmət göstərmək.

**4.2** Müştərilərə düzgün, ədalətli və qərəzsiz münasibət bəsləmək.

**4.3** Müştərilər qarşısında öhdəlikləri vaxtında yerinə yetirmək.

**4.4** Müştərilərdən alınan məlumatların mextəlifliyinə hörmət bəsləmək və bunu təmin etmək.

**4.5** Xidmət və məhsullarımızın keyfiyyətinin daima təkmilləşdirilməsi və münasib qiymətlərin tətbiqinə daima can atmaq.

## 5. RƏQİBLƏRƏ MÜNASİBƏT

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu (İİETİ) öz rəqiblərinə hörmətlə və ədalətlə yanaşır, qeyri-sağlam rəqabəti pisləyir. İİETİ, rəqiblərinə yalnız intellektual üstünlüyə nail olmaqla sağlam rəqabət prinsiplərinə sadiq olacağını bəyan edir.

## 6. CƏMİYYƏT QARŞISINDA ÖHDƏLİK

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu (İİETİ) xalqımızın dini, mədəni və tarixi dəyərlərinə hörmətlə yanaşır və ölkəmizin maraqlarını hər şeydən üstün tutur. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun (İİETİ) Azərbaycanın böyük gələcəyinə inanır və fəaliyyət göstərdiyi cəmiyyət qarşısında mənəvi və sosial məsuliyyət daşıyır. Eyni zamanda aşağıdaki prinsipləri qəbul edir.

**6.1** Təşkilat ölkə qanunvericiliyinə, onun konstitusiyasına və hökümətin qərarlarına, o cümlədən beynəlxalq hüquq normalarına hörmətlə yanaşır və ikili standart siyasətini qəbul etmir.

**6.2** Təşkilat cəmiyyətdə yeni iş yerlərininyaradılmasına təkan verir.

**6.3** Təşkilat iqtisadi siyasətin "Beyin mərkəzi" olaraq Azərbaycanın tərəqqisinə təkan verən və xalqın rifahına xidmət edən, sahəsindən asılı olmayaraq (iqtisadiyyat, elm, incəsənət, təhsil,mədəniyyət və s.) həyata keçirilən layihələri dəstəkləyir.

**6.4** Təşkilat cəmiyyətdə aztəminatlı və həsas təbəqələri (ahıllar, əlillər, kimsəsiz uşaqlar, qaçqın və məcburi köçkünlər) mənəvi dəstəkləyir və imkan daxilində köməklik göstərir.

## 7. MARAQLARIN MÜNAQİŞƏSİ

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun (İİETİ) əməkdaşları iş prosesində öz həmkarları, təşkilatın tərəfdaşları və müştəriləri ilə münasibətdə ədalətli və qərəzsiz mövqe tutmalı, ilk növbədə təşkilatın maraqlarından irəli gələn addimlar atmalıdır. Eyni zamanda aşağıdaki neqativ halların rəhbərlik və kollektivdə maraqların münaqişəsinə səbəb olacağını və bu hallardan yan qaçmanın zəruriliyini dərk etməlidirlər:

**7.1.** Vəzifədən sui-istifadə, təşkilatın mülkiyyəti, avadanlığı, kommersiya maraqları, o cümlədən maliyyə resurlarından öz şəxsi məqsədləri üçün istifadə.

**7.2.** Eyni zamanda rəqib təşkilatda işləmək və ya onunla əməkdaşlıq etmək.

**7.3.** Rəqib təşkilatda birbaşa və ya dolayısı ilə hər hansı bir marağa (məs. maliyyə, səhm) malik olmaq.

**7.4.** Təşkilata məxsus olan konfidensial məlumatların şəxsi məqsədlər üçün və ya üçüncü tərəfə ötürmək məqsədilə açıqlanması.

**7.5.** Tərəfdaşlar, müştərilər və ya təşkilatla biznes əlaqəsi olan istənilən şəxslərrdən və ya qurumlardan hədiyyə və rüşvət qəbul edilməsi və ya verilməsi.

**7.6.** Təşkilatın davranış (nizam-intizam) qaydalarını pozmaq (məs. səliqəsiz geyim və xarici görünüş, pintilik, iş vaxtı spirtli içkilər və həkim göstərişi olmadan digər uyuşdurucu maddələrin qəbulu).

**7.7.** İş vaxtı hər hansı bir formada siyasi fəaliyyətlə məşğul olmaq. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun (İİETİ) siyasi proseslərdə ölkə qanunvericiliyi və dövlət siyasətində əks olunmuş müddəalarla tənzimlənir.

**7.8.** Azərbaycan Respublikası Əmək Məcəlləsində təsbit olunmuş maddələri və digər qanunları kobudcasına pozmaq.

## 8. KODEKSİN TƏTBİQİ MEXANİZMİ

Bu kodeksin müddəaları İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun (İİETİ) bütün əməkdaşları üçün icbari xarakter daşıyır və əməkdaşın vəzifəsindən və tutduğu mövqedən asılı olmayaraq hamıya şamil edilir. Bu kodeksin müddəalarını pozanlara qarşı aşağıdakı inzibati tədbirlər görülməsi zəruri hesab edilir:

8.1. Kodeksin müddəasını pozan şəxsə 1-ci dəfə şifahi xəbərdarlıq edilsin.

8.2. İkinci dəfə yazılı töhmət verilsin.

8.3. Üçüncü dəfə maaşından müəyyən məbləğ çıxmaqla cərimə edilsin.

8.4. İşdən çıxarılması ilə bağlı sonuncu dəfə ciddi xəbərdarlıq edilsin.

8.5. İşdən çıxarılsın.

İİETİ-nin bütün əməkdaşlarından xahiş edilir ki, Kodeksin müddəaları ilə bağlı istənilən sualları və ya sual doğa biləcək istənilən halları işlədiyi şöbənin rəhbərliyinə yönəltsin və ətraflı məlumat alsın. Eyni zamanda hər bir işçidən iş şəraitində baş verən qeyri-etik davranış hallarının, ilk növbədə işlədiyi şöbənin rəhbərliyinə və əgər bu hal birbaşa şöbə rəhbərliyi ilə bağlıdırsa və ya şöbə rəhbərliyi bu məsələni həll etmək iqtidarında deyilsə, İİETİ-nin rəhbərliyinə tam şəffaf şəkildə və çəkinmədən çatdırılması xahiş edilir.

**ETİKA KODEKSİNİN MÜDDƏALARI ilə TANIŞLIQ və ONLARIN QƏBUL EDİLMƏSİ**

Mən İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun (İİETİ) "Etika Kodeksi"nin müddəaları ilə tanış oldum və bu müddəaları qəbul edirəm.

Adı ____________________________________________

Soyadı ____________________________________________

Vəzifəsi ____________________________________________

İmza ____________________

Tarix ____________________

***İrad və təkliflər***

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________